# Azərbaycan tarixi kursunun tədrisində şagirdlərdə tarixi şəxsiyyətlər haqqında təsəvvürlərin formalaşması

**Rüfət Sənan oğlu Sabirli**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** Rufet.sabirli96@gmail.com

**Rəyçilər:** t.ü.e.d., dos. S.M. Seyidova,
p.ü.f.d. D.M. Musayev

**Açar sözlər:** tarix, şəxsiyyət, didaktika, psixologiya, fəlsəfə, müəllim, şagird, metod, üsul, məktəb

**Ключевые слова:** история, личность, дидактика, психология, философия, учитель, ученик, метод, прием, школа

**Key words:** history, personality, didactics, psychology, philosophy, teacher, pupil, method, mode, school

Ümumtəhsil məktəblərində şagirdlərin Azərbaycan tarixi ilə tanışlığı V sinifdən etibarən başlayır. Burada şagirdlər Azərbaycan tarixi haqqında ümumi məlumatları (ən qədim zamanlardan müasir dövrümüzə qədər) qısa və lakonik şəkildə, anlaşıqlı bir formada əldə edirlər. Bu həm də tarix müəlliminin üzərinə düşən bir vəzifədir ki, o, bütün məlumatları tarix ilə yeni tanış olan şagirdləri yormadan onlara ötürsün və elə metod və üsullardan istifadə etsin ki, şagirdlərdə bu fənnə zərrə qədər maraq azalmasın.

Fənn kurikulumuna əsasən tarix fənninin məzmun standartları tarixi zaman, tarixi məkan, dövlət, şəxsiyyət və mədəniyyət kimi müəyyən olunub.

Şəxsiyyət. Ayrı-ayrı şəxsiyyətlərin fəaliyyəti bu və ya digər dərəcədə tarixin gedişinə təsir göstərir. Tarixi şəxsiyyətlərin fəaliyyətindən xeyli dərəcədə asılı olub, olur və olacaqdır. Onların fəaliyyətlərinin əsasının başa düşülməsi və nəticələrinin düzgün qiymətləndirilməsi, eyni zamanda bir sıra tarixi hadisələrin səbəb-nəticə əlaqələrini müəyyənləşdirməyə və gələcəkdə baş verə biləcək digər hadisə və təzahürləri proqnozlaşdırmağa imkan yaradır (3, s. 78). Buna görə də şagirdlərin keçmişdə, eləcə də müasir zamanda insan cəmiyyətinin inkişafında ayrı-ayrı şəxsiyyətlərin rolunu düzgün başa düşməsi və dəyərləndirməsi üçün onlara Azərbaycan tarixi ilə bağlı şəxsiyyətlərin fəaliyyəti barədə araşdırmalar aparmaq, müqayisələr və təhlillər əsasında fikir söyləmək imkanı verən bacarıqların aşılanması zəruri hesab edilir (2, s. 13).

Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin rolu və fəaliyyəti danılmazdır. Şəxsiyyətlər tarixə öz təsirlərini bəzən müsbət, bəzən isə əksinə, tam mənfi şəkildə göstərir. əslində bu, şəxsiyyətin tarixdə nə qədər önəmə məxsus olduğunu göstərir. Bəzən bir şəxsiyyət bütün insanlığın həyatına, ümumdünya iqtisadiyyatına, təbiətə, millətlərarası və dövlətlərarası münasibətlərə müsbət və ya mənfi formada təsir edir. Məsələn, Azərbaycanın tarixi şəxsiyyəti olan Cavanşir. Bilirik ki, Cavanşirin dövründə Albaniya Biznas imperiyası, Ərəb xilafəti və Xəzər xaqanlığı kimi güclü dövlətlərlə əhatə olunmuşdu. Onların hər biri Albaniyanın müstəqilliyi üçün təhdid idi. Lakin Cavanşirin siyasi savadı, manevr etmə bacarığı və şəxsiyyəti Albaniyanın müstəqilliyinin qorunmasına səbəb oldu. Beləliklə, Cavanşir Albaniyanın müstəqilliyini qorudu, öz xalqını işğal, müharibə və qırğın təhlükəsindən xilas etdi. Bütün bu faktlar bir şəxsiyyətin tarix səhnəsindəki önəmini isbat edir. Ona görə də, şəxsiyyət məsələsi hər zaman öz aktuallığını qoruyub saxlamaqdadır.

Şagirdlərdə tarixi şəxsiyyətlər haqqında anlayışların formalaşdırılması, o cümlədən, onların təxəyyülündə həmin subyektin rəsmini canlandırmaq üçün ilkin olaraq şəxsiyyət sözünün anlamını şagirdlərdə izah etmək lazımdır. Psixologiyada buna geniş, bir o qədər mürəkkəb izahlar və təriflər verilib. Lakin tarix müəllimi onu həm də aşağı sinif şagirdinin anlayacağı bir dildə izah etməsi daha məqbuldur. Buna görə də biz şagirdlər üçün şəxsiyyəti belə izah edə bilərik: "Şəxsiyyət müəyyən ictimai – tarixi dövrdə yaşayıb fəaliyyət göstərən, gerçəkliyi dərk edib müəyyən istiqamətdə dəyişdirən, öz ünsiyyət bacarığı və natiqliyi ilə seçilən, insanları inandırmaq bacarığına malik olan konkret canlı insandır" (1, s. 36; 9, s. 123).

Şagirdlərə kiçik bir misal ilə bu dediklərimizi daha aydın bir şəkildə izah edə bilərik. Misal üçün, yuxarıda haqqında danışdığımız Azərbaycanın tarixində böyük iz qoyan, haqqında rəvayətlər qoşulan Cavanşir əsl tarixi şəxsiyyətdir. Lakin onunla 662-ci ildə Kür çayı sahilində çiyin – çiyinə döyüşən əsgərləri isə tarixi şəxsiyyət deyil, tarixi personajdır.

Azərbaycan tarixi kursunda şagirdlərdə tarixi şəxsiyyətlər haqqında təsəvvürlərin formalaşdırılması bir neçə əsasda aparıla bilər. Bunlar didaktik, psixoloji və fəlsəfi əsaslardır.

Didaktik əsas dedikdə şagirdlərə tarixi şəxsiyyətlər barədə təlimverici, öyüdverici, nəsihətverici, tərbiyə məqsədi daşıyan biliklərin və məlumatların verilməsi başa düşülür. Ümumiyyətlə didaktika üç başlıca suala cavab verir: Nəyi öyrətməli? Necə öyrətməli? Hansı formada öyrətmək? Bu məsələlərlə bağlı təlimin optimal məzmununu, səmərəli vasitə və yollarını, təşkil formalarını müəyyən etmək didaktik əsas dediyimiz prosesin əsasını təşkil edir. Bu baxımdan tarix müəllimi şagirdlərin fikir və təxəyyülünü didaktik baxımdan elə bəzəməlidir ki, hər bir şagirdin tarixi şəxsiyyətlərə, onların fəaliyyətinə, yaşadığı zaman və məkana marağı artsın (5, s. 219).

V sinifdə "Hökümdar qadın - Tomiris" mövzusunu tədris edərkən zamanın nəhəng Əhəməni imperiyasının şahı olan Kirin kiçik bir tayfanın – massagetlərin başçısı olan Tomiris tərəfindən öldürülməsi və həmin dövr barədə onların təxəyyülündə ümumi səhnələr canlandırılmalıdır. Bu zaman mərhəmətli, nəcib bir Azərbaycan qadını olan Tomirisin qan tökülməsini istəməməsi, lakin yeri gəldikdə isə öz vətəni və torpağı uğrunda döyüş meydanına atılmaqdan çəkinməməsi şagirdlərin diqqətinə çatdırılmalıdır. Bütün bu sadalanan tarixi prosesləri texniki vasitələrlə - proyekor ilə slayd və animasiya videoları ilə şagirdlərə göstərmək olar. Nəticədə şagirdlərin təsəvvüründə qeyrətli bir Azərbaycan qadını olan Tomiris portreti canlanır, onu özlərinə örnək seçirlər. Beləliklə hər bir şagirddə vətənə bağlılıq, milli qürur hissi formalaşır (5, s. 48; 10, s. 23).

Məktəblilərin psixi inkişafı və bunun təlim prosesi ilə qarşılıqlı münasibəti məsələsi həm pedaqoqların, həm də psixoloqların diqqətini hər zaman çəkmişdir. Bir çox görkəmli alimlər şagirdlərin təlim fəaliyyətinin yaş xüsusiyyətlərindən, inkişaf səviyyəsindən asılı olduğunu isbat etməyə çalışmışdır. Psixoloqlar belə hesab edir ki, uşağın psixi inkişafı özünün daxili qanunlarına malikdir və bir sıra özünəməxsus mərhələlərdən keçir. Onların fikrincə təlim inkişafa heç bir əsaslı təsir göstərə bilməz. Ona görə də, təlim inkişafa uyğunlaşdırılmalı və onun tənzim edilməsində məhz inkişafın səviyyəsi əsas götürülməlidir (7, s. 97; 8, s. 65).

V sinifdən etibarən şagirdlərlə bir deyil bir neçə müəllim məşğul olmağa başlayır. Şagirdlər müəllimin eridusiyasına, şagirdlərlə düzgün qarşılıqlı əlaqə yaradan müəllimlərə daha çox üstünlük verirlər. Bu dövrdə şagirdlərdə qavrayış və hafizə də inkişaf edir. Tarix müəllimi şagirdlərin bütün bu psixoloji amillərini nəzərə almalı və bundan istifadə etməyi bacarmalıdır. Şagirdlərdə bu dövrdə təxəyyül sürətli inkişaf edir. Onlarda romantik, fantastik sürətlərin yaradılmasına meyl yüksək olur. Təxəyyülünün inkişafı təlim materialını daha səmərəli və yaradıcı şəkildə mənimsəmələrinə imkan verir (8, s. 315).

Şagirdlərin təxəyyülündə tarixi şəxsiyyətlərin psixoloji əsaslarla formalaşması nəticəsində sözü gedən tarixi şəxsiyyət və şəxsiyyətlər onların həyatının bir hissəsinə çevrilir, bəziləri həmin şəxsiyyətləri özlərinə bir örnək kimi seçirlər.

"Böyük Azərbaycan xeyriyyəçisi" mövzusu keçirilərkən H.Z. Tağıyevin xeyriyyəçiliyi, öz ölkəsinə və vətəndaşlarına etdiyi saysız köməkliklər şagirdlərin diqqətinə çatdırılır. H.Z. Tağıyev şəxsiyyəti şagirdlərin şüurunda iz buraxır. Nəticədə şagirdlərin vətənpərvərliyinə, mənəvi əxlaqına, psixikasına yardımsevərlik,köməyə ehtiyacı olanlara əl tutmaq keyfiyyətləri aşılanır (4, s. 67; 10, s. 124)

Fəlsəfi fikir tarixində şəxsiyyətlərin, birinci növbədə isə dövlət başçılarının rolunu artıran baxışlara tez-tez rast gəlinir. Onların tərəfdarları iddia edirlər ki, görkəmli şəxsiyyətlər (xanlar, şahlar, sərkərdələr və s.) tarixi prosesin gedişini idarə edirlər. Hər şey onlardan asılı olur. Əlbəttə, tarixdə şəxsiyyətin öz xüsusi yeri və funksiyaları vardır. Buna görə də onun rolu böyükdür. Tarix fəlsəfəsi bunu qəbul edir. O, həm də şəxsiyyəti tarix meydanına çıxaran real ictimai qüvvələrə böyük diqqət yetirir. Bütün bunları nəzərə almaqla o, şəxsiyyətin tarixdə nəyə qadir olduğunu və nəyi bacara bilmədiyini müəyyən edir (6, səh.432).

V sinifdə "Müstəqil Azərbaycanın qurucusu" mövzusu tədris edilərkən tarix müəllimi həmin dövrün siyasi şəraiti barədə şagirdlərin təxəyyülündə müəyyən səhnələr canlandırır, ölkəmizin çətin günündə Ulu öndərimizin gəlişini və öz vətənini böyük bəladan xilas etməsini onlara çatdırır. Müəllim şagirdlərdən soruşur: Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra siyasi və iqtisadi çətinliklər yaşayan Azərbaycanın güclənməsi üçün hansı addımlar atdı? Bütün bu proseslər onlarda məntiqi təfəkkürün inkişafı, dünyagörüşünün formalaşması nəticəsində yaranır və şagirdlər bunun sayəsində fikir irəli sürə bilirlər. (10, s. 197)

Beləliklə, Heydər Əliyev şəxsiyyəti şagirdlərin yaddaşında dərin iz buraxır. Şagirdlər onu özlərinə örnək alır, onun kimi vətəninə, millətinə bağlı olurlar.

Şəxsiyyətlə bağlı mövzuların təlimində texniki vasitələrdən də istifadə etmək lazımdır. Məsələn, kompüterdən, proyektorlardan istifadə etməklə mövzunun icmalı qabaqcadan hazırlana bilər. Motivasiyanın qurulmasında texniki vasitələrdən, video materiallardan, slaydlardan istifadə etməklə şagirdlərin maraqlarını artırmaqla onları dərsə maksimum cəlb etmək olar. Dərsi maraqlı etmək üçün hər hansısa bir şəxsiyyətin həyatını əks etdirən məlumatları slaydlara toplamaq və onu şagirdlərin diqqətinə çatdırmaq mümkündür. Əgər həmin şəxsiyyət sərkərdədirsə, onun yürüşlərini slaydda xəritə ilə və ya kiçik videogörüntülər ilə şagirdlərin diqqətinə çatdırmaq olar.

Sonda ümumləşdirmə apararaq demək olar ki, tarix dərslərində şəxsiyyət anlayışının şagirdlərin təxəyyülündə formalaşdırılması nəticəsində onlarda həmin şəxsiyyətlərdən ilhamlanaraq vətənpərvərlik, millətə bağlılıq, əməksevərlik və s. kimi hisslər formalaşır. Dialoq və diskussiyalarda şəxsiyyətlər barədə 15-20 dəqiqəlik müzakirələr aparmaq, onların fəaliyyətindən bəhs etmək şəxsiyyət anlayışının daha aydın formalaşmasına gətirib çıxaracaq.

**Məqalənin aktuallığı.** Şəxsiyyət anlayışının Azərbaycan tarixi kursunun məzmun standartında müstəqil standart olaraq verilməsi onun əhəmiyyətli olmasını göstərir.

**Məqalənin elmi yeniliyi.** Tarixi şəxsiyyətlərin şagirdlərin təsəvvüründə formalaşdırılması üçün interaktiv təlim metodlarında müasir təlim texnologiyalarından istifadənin önəmi göstərilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Şagirdlərdə tarixi şəxsiyyətlər haqqında anlayışların formalaşdırılmasının üsul və yolları göstərilmişdir.

## Ədəbiyyat

1. Abbasov A.N. Pedaqogika. Bakı: Mütərcim, 2013.
2. "Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan tarixi fənni üzrə təhsil proqramı (KURİKULUMU) (V-XI SİNİFLƏR). Bakı, 2013.
3. Cəbrayılov İ.H. Azərbaycan tarixinin tədrisi metodikası. Bakı: Mütərcim, 2006.
4. Feyziyev C.Ə., İbrahimov F.N. və Bədiyev S.R. Didaktika. Bakı: Mütərcim, 2011.
5. Hacıyev Z. Fəlsəfə. Bakı: Turan, 2012.
6. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: ADPU-nun nəşri, 2000.
7. Seyidov S.İ., Həmzəyev M.Ə. Ümumi psixologiya. Bakı: YYSQ, 2014.
8. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün Azərbaycan tarixi fənni üzrə dərslik. Bakı: Təhsil, 2016.
9. Boris G.D. Effective teaching methods. Upper Saddle River: İntroduction, 1996.
10. Tomkins M.K. Curriculum and education. Birmingham. Book Tower, 2008.

**Р.С. Сабирли**

## Формирование представлений учеников об исторических личностях при преподавании курса истории Азербайджана

## Резюме

В статье исследуются роль личности в истории, пути и возможности формирования этих личностей в воображении учащихся, а также её дидактические, психологические и философские основы. А также на этом фоне формирование у учащихся чувства патриотизма на примере исторических личностей, их любви к Родине и народу и т. д. отражается формирование чувств.

**R.S. Sabirli**

## Formation of students' ideas about historical figures in the teaching of the history course of Azerbaijan

## Summary

This article examines the role of personality in history, ways and opportunities for the formation of these personalities in the imagination of students, as well as the didactic, psychological and philosophical foundations. As well as against this background, the formation of a sense of patriotism in students on the example of these personalities, their love for the motherland and the nation, and so on. the formation of feelings is reflected.

**Redaksiyaya daxil olub:** 23.01.2021